Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

ARTİ
Azərbaycan Respublikasının Təhsil İnstitutu

MÜTDA
Məktəbəqədər və Ümumi Təhsil Üzrə Dövlət Agentliyi

birbank

RFO

RESPUBLİKA FƏNN OLİMPİADALARI

RAYON (ŞƏHƏR) MƏRHƏLƏSİ

**Ad** ______________________________ **Soyad** ________________________________

# 10-cu sinif

# COĞRAFİYA

## Azərbaycan bölməsi

- İmtahan müddəti — **150 dəqiqədir**.
- Hər səhv cavab öz dəyərinin **1/4-ni aparır**.
- Sualların hər biri **5 balla** qiymətləndirilir.
- Kitabçada **20 sual** mövcuddur.
- Nəzarətçilərə cavab kağızları təqdim olunur.
- Rayon (şəhər) mərhələsinin nəticələrini **03.02.2026**-cı il tarixindən etibarən **portal.edu.az** platformasında (QR kodu skan edərək) şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

Kitabçamda texniki qüsur (çap olunmamış, aydın olmayan səhifə, natamam suallar) olmadığını və məlumatların (sinif, fənn, bölmə) mənim məlumatlarıma uyğunluq təşkil etdiyini təsdiq edirəm.

İmza: ________________________

**1.** Dağın ətəyində atmosfer təzyiqi 720 mm c.s.-dur. Dağın maksimum hündürlüyü dəniz səviyyəsindən 4400 metr yüksəkdə yerləşir. Dağın zirvəsi ilə ətəyi arasındakı temperatur fərqini Faranheyt şkalası ilə müəyyən edin. (Nəzərə alın ki, dəniz səviyyəsində təzyiq normaldır).

A) 37,3°F B) 35,8°F C) 69,3°F D) 75,2°F E) 56,2°F

**2.** Doğru fikirləri müəyyən edin.

1. Şaquli qalxmalar və enmələr yalnız geosinklinallarda baş verir.
2. Karib və Kokos litosfer tavaları eyni okeanda yerləşir.
3. Avstraliya materikinin qərb hissəsi geoloji yaşına görə şərq hissəsindən daha qədimdir.
4. Ruvenzori horstu litosfer tavalarının konvergent sərhədində yerləşir.
5. Kamerun vulkanı Şimal, Kilimancaro vulkanı isə Cənub yarımkürəsində yerləşir.
6. Labrador yarımadasında dəmir, Florida yarımadasında isə fosfor ehtiyatları mövcuddur.

A) 3, 5, 6 B) 1, 3, 5 C) 2, 4, 6 D) 3, 4, 5 E) 1, 2, 6

**3.** Doğru fikirləri müəyyən edin.

1. Günəş şüaları günorta vaxtı 30° cənub enliyi və 60° şərq uzunluğunda yerləşən məntəqəyə 36,5°-dən kiçik bucaq altında düşə bilməz.
2. Aysberqlər əsasən okean səthinin donmuş hissəsindən formalaşır.
3. Kaskad və Krım dağları geosinklinalın inkişafının üçüncü mərhələısindədir.
4. 22 iyun tarixində 50° şimal enliyindəki məntəqədə gündüzün uzunluğu 45° şimal enliyindəki məntəqədəkindən daha çoxdur.
5. Buludluluğun ilboyu çox olduğu ərazilərdə pambıqçılıq üçün əlverşli təbii şərait mövcudur.
6. Tropik enliklərdən fərqli olaraq mülayim enliklərin dəniz və körfəzlərinin səthində buxarlanma qabiliyyəti ilə buxarlanma arasında nəzərəçarpacaq dərəcədə fərq var.

A) 2, 3, 4 B) 1, 4, 6 C) 2, 3, 5 D) 1, 4, 5 E) 1, 3, 4

**4**. Günəş şüalarının minimum və maksimum düşmə bucaq fərqi 47°-dən kiçik olduğu, lakin gecə və gündüzün adi növbələşməsinin pozulmadığı enliklər üçün uyğun ***olmayan*** fikirləri müəyyən edin.

1. Şaquli dirəyin saldığı kölgə il ərzində günorta vaxtı üfüqün həm şimal, həm də cənub tərəfində görünür.
2. Antarktidadan başqa bütün materiklərdə rast gəlinir.
3. Konus proyeksiya ilə tərtib edilmiş xəritələrdə təhrif daha az olur.
4. Qar xəttindən yuxarıda olan ərazilər mövcuddur.
5. Gecə və ya gündüzün uzunluğu 14 saat 30 dəqiqədən çox ola bilər.
6. Orinoko və Oranj (Narıncı) çayları yerləşir.

A) 1, 3, 6 B) 3, 5, 6 C) 2, 4, 5 D) 2, 3, 5 E) 1, 4, 6

**5.** Şimali Amerika materiki üçün səciyyəvi xüsusiyyətlər:

1. 30 martda günəş zenitdə olur.
2. Florida yarımadası Paleozoy erasında yaranıb.
3. Yerləşdiyi litosfer tavası Afrika tavası ilə divergent sərhədə malikdir.
4. Şimal yarımkürəsinin bütün iqlim qurşaqlarında yerləşir.
5. Həm buzlaq, həm də tektonik mənşəli göllərə rast gəlinir.
6. Şimal-qərb sahillərində tornado qasırğası müşahidə edilir.

A) 2, 3, 6 B) 1, 3, 6 C) 2, 3, 5 D) 1, 4, 5 E) 4, 5, 6

**6.** Eyler-Venn diaqramına əsasən uyğun olan bəndi müəyyən edin.




*İqlim qurşaqları:*
1. Ekvatorial
2. Subekvatorial
3. Tropik
4. Subtropik
5. Mülayim

a. Öz hava kütləsi yoxdur.
b. Arnemlend yarımadasında müşahidə olunur.
c. Mekonq çayının sutoplayıcı hövzəsi yerləşir.
d. Antarktida qitəsindən başqa bütün qitələrdə rast gəlinir.
e. İqlim qurşaqları təkrar olunan materiklərdə həm şimal, həm də cənub yarımkürəsində müşahidə edilir.

A) I-1; II-4　　B) I-2; II-5　　C) I-4; II-3
D) I-2; II-3　　E) I-2; II-4

**7.** Uyğunluğu müəyyən edin.

1. Braziliya yaylası
2. Meksika yaylası
3. Orta Sibir yaylası

a. Heç vaxt kölgə uzunluğu sıfra bərabər olmur.
b. Aid olduğu ölkə iki yarımkürədə yerləşir.
c. Yerləşdiyi materikdə Mezozoy qırışıqlığında yaranan relyef formalarına rast gəlinmir.
d. Yerləşdiyi ölkənin sahillərini üç yarımkürədə yerləşən okeanın suları yuyur.
e. Yerləşdiyi ölkələrdə Günəş ilboyu günorta vaxtı zenitdə olur.

A) 1-a; 2- b, c; 3-d
B) 1-c; 2-b; 3-a, d
C) 1-b, e; 2-a; 3-c, d
D) 1-c, e; 2-b; 3-a, d
E) 1-e; 2-a, c ; 3-b, d

**8.** Cədvələ əsasən doğru sıraları müəyyən edin.

| S/S | Faydalı qazıntıları ifadə edən simvollar | Faydalı qazıntıların təyinatı |
|---|---|---|
| 1 |  | Yanacaq |
| 2 |  | Filiz |
| 3 |  | Qeyri-filiz |
| 4 |  | Filiz |
| 5 |  | Filiz |
| 6 |  | Yanacaq |

A) 4, 5, 6　B) 1, 3, 6　C) 2, 4, 5　D) 1, 4, 5　E) 1, 2, 3

**9.** İqlim diaqramının aid olduğu məntəqənin yerləşdiyi inzibati rayonu üçün doğru fikirləri müəyyən edin.




1. İki xarici ölkə ilə həmsərhəddir.
2. Qışı mülayim keçən yarımsəhra və quru-çöl iqlim yarımtipinə rast gəlinir.
3. Qara metallurgiyanın xammal ehtiyatı mövcuddur.
4. Mülayim isti iqlim tipinin bütün yarımtipləri mövcuddur.
5. Yura dövrünə aid olan çöküntülər, Təbaşir dövrünün çöküntülərindən daha çox ərazidə yayılıb.
6. 4000-metrdən yüksək dağ zirvələrinə rast gəlinmir.

A) 1, 5, 6　B) 2, 3, 5　C) 2, 4, 6　D) 3, 4, 5　E) 1, 3, 4

**10.** Xəritə-sxemdə göstərilən adaların aid olduğu ölkə üçün doğru fikirləri müəyyən edin.



1. Cənub və Qərb yarımkürələrində yerləşir.
2. Günəş ildə bir dəfə zenitdə olur.
3. Litosfer tavalarının divergent sərhədində yerləşir.
4. İEÖ-dir.
5. Fəaliyyətdə olan vulkan mövcuddur.
6. Subtropik və mülayim iqlim qurşağında yerləşir.

A) 2, 3, 5   B) 2, 3, 6   C) 4, 5, 6   D) 1, 4, 6   E) 1, 3, 5

**11.** Okeanlarda mövcud olan səth cərəyanları haqqında doğru fikirləri müəyyən edin.

1. Soyuq cərəyanlar hərəkət etdiyi suların duzluluğunu azaldır.
2. İsti cərəyanlar alçaq enliklərdən yüksək enliklərə doğru hərəkət edir.
3. Çay mənsəblərində deltanın formalaşmasına səbəb olur.
4. Qütb işıqlanma qurşağında formalaşmır.
5. Aysberqlərin hərəkət istiqamətinə təsir edir.
6. İsti cərəyanlar buxarlanma ilə buxarlanma qabiliyyəti arasındakı fərqin artmasına səbəb olur.

A) 2, 4, 6   B) 1, 2, 5   C) 2, 3, 4   D) 3, 5, 6   E) 1, 5, 6

**12**. Doğru ***olmayan*** fikirləri müəyyən edin.

1. Mərmərə dənizinin orta duzluluğu Baltik dənizinin orta duzluluğundan daha çoxdur.
2. Bayron ucqar nöqtəsinin sahillərindən isti okean cərəyanı hərəkət edir.
3. Pangeya təqribən 4,5 milyard il bundan əvvəl Lavrasiya və Qondvanaya parçalanıb.
4. Aleut və Azor adaları subduksiya zonasında yerləşir.
5. 40° cənub enliklərində okeanların səth sularının orta illik temperaturu 40° şimal enliyində okeanların səth sularının orta illik temperaturundan daha aşağıdır (Azonal amilləri nəzərə almadan).
6. Şərqi Antarktidanın sahil xətti materikin qərbi ilə müqayisədə daha çox parçalanıb.

A) 3, 4, 6  B) 1, 2, 5   C) 2, 4, 6   D) 1, 3, 6  E) 3, 4, 5

**13.** Eyler-Venn diaqramını ***tamamlamayan*** bəndi müəyyən edin.




1. Qütb dairə xətti iki materiklə kəsişir.
2. Mərcan mənşəli adalara rast gəlinir.
3. Okean səthinin sahəsi quru səthinin sahəsindən daha çoxdur.
4. Daxili dənizlərə rast gəlinir.
5. 7000 metrdən yüksək dağ zirvələri mövcuddur.
6. Aysberqlərə rast gəlinir.

A) 3, 5, 6
B) 1, 2, 5
C) 3, 4, 6
D) 2, 4, 6
E) 1, 4, 5

**14.** Cədvələ əsasən uyğunluğu müəyyən edin.

| | | |
|---|---|---|
| 1 | Kamçatka yarımadasında fəaliyyətdə olan vulkanlar mövcuddur. | *doğru* |
| 2 | Qafqaz, Pamir və Kopetdağ silsilələri geosinklinalda yerləşsə də fəaliyyətdə olan vulkanlara rast gəlinmir. | *yanlış* |
| 3 | Keyp-York, Alyaska və Labrador yarımadalarının sahillərini iki okeanın suları yuyur. | *yanlış* |
| 4 | Bofort dənizi coğrafi mövqeyinə görə adalararası dəniz hesab edilir. | *yanlış* |
| 5 | Sarı, Tasman və Karib dənizləri donmaya məruz qalır. | *doğru* |
| 6 | Hind-Çin yarımadası üzərində formalaşan hava kütləri ölkəmizdə iqlim tiplərinin formalaşmasına təsir edir. | *doğru* |

A) 1, 4, 6 B) 2, 3, 6 C) 1, 3, 4 D) 1, 4, 5 E) 2, 3, 5

**15.** Cədvələ əsasən uyğunluğu müəyyən edin.

| | | |
|---|---|---|
| 1 | Saatlı, Sabirabad, Samux və Qazax inzibati rayonları Kür çayı sahillərində yerləşir. | *doğru* |
| 2 | Ağdərə inzibati rayonu xarici ölkə ilə həmsərhəddir. | *doğru* |
| 3 | 22 iyun tarixində Zaqatala, Balakən və Qax inzibati rayonlarında gündüzün uzunluğu Sədərək və Lənkəran rayonlarındakından daha uzundur. | *yanlış* |
| 4 | Qarabağ vulkanik yaylası və Murovdağ silsiləsinin mütləq hündürlüyü 3000 metrdən çoxdur. | *yanlış* |
| 5 | Zəngəzur dağ silsiləsində nival- buzlaq və subnival landşaftlara rast gəlinir. | *doğru* |
| 6 | Şərur inzibati rayonu bir tektonik zonada yerləşir. | *yanlış* |

A) 1, 4, 5 B) 2, 3, 6 C) 1, 5, 6 D) 2, 4, 6 E) 1, 3, 5

**16.** Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin




a. Avrasiya materiki ilə kəsişir.
b. Üç yarımkürədə yerləşir.
c. Günəş hər zaman zenitdədir.
d. Sakit və Şimal Buzlu okeanlarla kəsişir.
e. Alp-Himalay geosinklinal qurşağı ilə kəsişir.

A) 1-c; 2-e; 3-d B) 1-a, b; 2-e; 3-c, d
C) 1-b, c; 2-a, d; 3-e D) 1-a, c; 2-b; 3-d
E) 1-a; 2-b; 3-d

**17**. İki xarici ölkə ilə həmsərhəd olan inzibati rayonları müəyyən edin.

1. Qax 2. Şəki 3. Tovuz
4. Qubadlı 5. Ordubad 6. Şahbuz

A) 1, 3, 6
B) 1, 2, 5
C) 2, 4, 6
D) 3, 4, 5
E) 1, 3, 5

**18**. Şimali Amerika və Avrasiya materiklərinin oxşar cəhətləri:

| 1.İqlimi | 2. Coğrafi mövqeyi |
|---|---|
| a. Musson yağışları müşahidə edilir.<br>b. Şimal tropik iqlim qurşağı tam zolaq təşkil edir.<br>c. Qərb sahillərində mülayim dəniz və Aralıq dəniz iqlim tiplərinə rast gəlinir. | a. Sahillərini Çukot və Berinq dənizlərinin suları yuyur.<br>b. Sahəsinə görə ən böyük ölkəsinin sahillərini üç okeanın suları yuyur.<br>c. Materikdaxili ölkələr mövcuddur. |

A) 1-a, b, c; 2-a, b
B) 1-a, b; 2-a, b, c
C) 1-a, c; 2-c, b
D) 1-a, c; 2-a, b
E) 1-b, c; 2-a, b

**19**. Verilmiş ölkələrə aid doğru xüsusiyyətləri müəyyən edin.

1. Fransa 2. Kanada 3. Braziliya
4. Çin 5. Türkiyə 6. Qazaxıstan

| | | |
|---|---|---|
| I | 1, 2, 4 | Federativ inzibati ərazi quruluşuna malikdir. |
| II | 4, 5, 6 | Çayları iki okean hövzəsinə aiddir. |
| III | 1, 3, 4 | BRİCS təşkilatının üzvüdür. |
| IV | 1, 2, 3 | Əhalinin böyük əksəriyyəti Hind-Avropa dillərində danışır. |
| V | 1, 2, 6 | Mülayim iqlim qurşağında yerləşir. |
| VI | 1, 2, 5 | Cavan dağlara rast gəlinir. |

A) II, IV, VI
B) I, III,V
C) IV, V, VI
D) III, V, VI
E) I, II, III

**20.** Yer kürəsinin sxemdəki vəziyyətinə əsasən doğru fikirləri müəyyən edin.




1. Qütb ulduzu (Polaris) görünən yarımkürədə (cənub və ya şimal) gecənin uzunluğu gündüzün uzunluğundan daha çoxdur.
2. Günəşin zenitdə olduğu yarımkürədə (cənub və ya şimal) gecə və günüdüzün adi növbələşməsi pozulmur.
3. Yer kürəsinin fırlanma oxu orbit müstəvisinə 80° meyilli olsa sxemdəki vəziyyət yarana bilməz.
4. 10° cənub enliyində dayanmış müşahidəçinin kölgəsi günorta vaxtı şimal istiqamətini göstərər.
5. Yer kürəsinin 40° cənub enliyində xəyali oxu ətrafında fırlanma sürəti 40° şimal eniyindəkindən daha çoxdur.
6. Cənub yarımkürəsinin quru səthində ən isti ay müşahidə edilir.

A) 1, 3, 5
B) 2, 3, 4
C) 1, 3, 4
D) 2, 5, 6
E) 1, 4, 6